https://doi.org/10.59849/2310-5399.2023.4.101

**UOT 78.07**

**Mahirə Quliyeva**
***Selçuklu Konya Dövlət Konservatoriyası***
***(Türkiyə)***

***mahireguliyeva353@gmail.com***

# ƏLƏKBƏR ƏSGƏROVUN YARADICILIĞINDAKI İSLAHATLAR VƏ NOVATORLUQ

**Xülasə.** Bu məqalədə, Azərbaycan musiqisini əsrarəngiz ifaları ilə zənginləşdirən və nəfəs çalğı alətləri üzərində islahatlar edən görkəmli sənətkarımız Ələkbər Əsgərovun çoxşaxəli yaradıcılıq irsi maraqlı faktlarla və arxiv materiallarla təqdim olunacaq. Həmçinin, Azərbaycanda ilk instrumental-folklor ansamblı "Dügah"ın yaranma tarixivə rəhbəri olan Ələkbər Əsgərovun buna dair etdiyi yeniliklərdən fikir bildiriləcək.

Burada,ustadın ifaçılıq məziyyətləri,bəstələdiyi rəqs melodiyaları və muğam rəngləri nəzərdən keçiriləcək. Məqalədə, Azərbaycanın görkəmli sənətkarları Nəriman Əzimovun Ələkbər Əsgərov haqqında lentə alınmış müsahibəsi şərhediləcək. Bundan başqa, Ələkbər Əsgərovun Avropa mənşəlli klarnet və milli alətimiz balabanın üzərində etdiyi konstruktiv dəyişiklikləri haqqında arışdırmalar nəticəsində əldə etdiyimiz məlumatlar təqdim olunmuşdur.

***Açar sözlər:*** Ələkbər Əsgərov, klarnet, balaban, islahatlar,"Dügah" folklor ansamblı.

**Giriş.** Azərbaycan nəfəs musiqi alətlərinin görkəmli nümayiəndəsi Ələkbər Əsgərovun çoxşaxəli yaradıcılığı bu gün musiqi kamilliyinin yüksək etalonu sayıla bilər. Neçə onilliklər boyu fəaliyyət göstərmiş virtuoz ifaçı, müəllim və yenilikçi Ə.Əsgərov öz yaradıcılığında – klarnet, balaban, ney və zurna alətlərinin təkmilləşdirilməsinə dair müxtəlif islahatlar etmişdir. Professional musiqiçilərin fikrincə Ə.Əsgərov, Qafqaz dövlətləri arasında ən virtuoz ifaçılardan biri olmuşdur.

Böyük təcrübəyə malik olan ustad sənətkarımız – klarnet, balaban, tütək, zurna və ney kimi nəfəs çalğı alətlərində illər ərzində biri-birindən maraqlı və virtuoz ifalarını xalqa təqdim etmişdir. Onun klarnetdə ifa etdiyi "Şalaxo", balabanda "Şur" və tütəkdə "Şüştər" muğamları, neydə bəstələdiyi "Dügah" rəngi, zurnada "Bayram axşamları" və bir çox ifa etdiyi əsərlər Azərbaycan xalqının incilərindən sayılır.

**Əsas materialın şərhi. Azərbaycanın** Xalq artisti, bəstəkar və dirijor mərhum Nəriman Əzimov AzTv-nin "Unudulmaz ifaçılar" proqramında Ələkbər Əsgərov haqqında dəyərli fikirlər söyləmişdir:"Həyatda elə sənətkarlar var ki, həm özü yaşayanda, həm də dünyasını dəyişəndən sonra heç vaxt unudulmur<...>. Mən, 1958-ci ildə Səid Rüstəmovun rəhbərliyi ilə Xalq Çalğı Alətləri orkestrinə işə qəbul olunanda Ələkbər Əsgərovla çiyin-çiyinə işləmişəm. Ə.Əsgərov bizim xalq çalğı alətləri orkestrinin ən gözəl ifaçılarından və solistlərindən idi. Mənim yaxşı yadımdadır, o vaxtları bizim görkəmli sənətkarımız Səid Rüstəmov 1959-cu ildə, Moskvada ongünlük çıxışlara hazırlıq işləri aparırdı və Şərq aləmində yeganə milli Xalq Çalğı Alətləri orkestri olaraq ən gözəl ifaçıları toplamışdı. Mən, Ələkbər Əsgərov, Əhsən Dadaşov, Baba Salahov, Hafiz Mirzəyev və başqa görkəmli sənətkarlarımızla bərabər çalışırdıq. O vaxtlar Ələkbər Əsgərov çox cavan olmağına baxmayaraq gözəl istedada malik bir ifaçı idi. Bircə onu deyə bilərəm ki, görürsən bir adam tarzəndir, amma pianoda da çalır, kamanda da çalır nə bilim başqa alətdə də çalır, amma onlardan biri onun gözəlliyini göstərir.Lakin Ələkbər Əsgərov elə bir sənətkar idi ki, o balabanda çalanda görürdün ki, bu alətin bütün sirrlərini, sehirli səslərini elə bil Allah Ələkbər Əsgərova bəxş edib. O, balabanı yerə qoyub tütək çalanda elə bilirdin ki, bu sənətin ustadı elə Ələkbər Əsgərovdur. Bir söz deməklə məqsədim ondan ibarətdir ki, Ə.Əsgərov öz sənətini sevən və ustadı olan bir ifaçı idi. Onun klarnetdə ifa etdiyi Ü.Hacıbəylinin – "Sevgili canan" və "Sənsiz" romansları, balabanda – Səid Rüstəmovun "Sənindir", Süleyman Ələsgərovun "Xəyala dalarkən", bas balabanda Hacı Xanməmmədovun – "Simfoniyetta" əsəri, zurnada, neydə və tütəkdə böyük improvizasiyalara malik olan çalğılarını qeyd etmək olar" [4].

**Ələkbər Əsgərovun "Dügah" instrumental-folklor ansamblı.** Qeyd etməliyik ki, Ə.Əsgərov 1966-cı ildən Sumqayıt Musiqi Texnikumunda balaban ixtisası ilə yanaşı alətşünaslığın tədrisi və ansambl yaradıcılığı ilə də məşqul olurdu. Pedaqoqun xalq çalğı alətləri haqqında illərlə

topladığı nəzəri bilgilər 1981-ci ildə "Dügah" instrumental-folklor ansamblının yaradılmasında böyük rol oynadı. "Dügah" ansamblı quruluş özəlliklərinə göräAzərbaycanda o dövrlərdə fəaliyyət göstərən bütün folklor kollektivlərindən fərqlənirdi. Əsas xüsusiyyətlərindən biri o idi ki, ansamblın tərkibinə– tar, kamança, qanun, nağara, qoşanağara, saz, ud, balaban, zurna, tütək, ney kimi qədim milli alətlərimiz daxil edilmişdir və heç bir müğənni və yaxud xanəndə dəvət olunmamışdır, çünki ustad sənətkarın arzusu idi folklor-instrumental ansamblı yaratsın və orada qədim alətlərimizin tembr xüsusiyyətlərini təqdim etsin. "Dügah"ın heyyətiMusiqi Texnikumunda çalışan müəllimlərdən ibarət idi. Asamblın adını Ə.Əsgərovdövrümüzdə unudulmaqda olan "Dügah" muğamı ilə əlaqələndirmişdir və bu məqsədlə sənətkar eyniadlırəng bəstələmişdir.Burada Azərbaycan muğamları, xalq rəqsləri, eləcə də Ə.Əsgərovunbəstələdiyi – "Dügah"[5],"Bayatı-Şiraz"[6] rəngləri səsləndirilmişdir.

"Dügah" ansamblı 1994-cü ilə kimi fəaliyyət göstərmişdir və ustadın xəstəliyi ilə əlaqədar məşqlər dayandırılmışdır.Sevindirici hal budur ki, onun yaradıcılığıgəncifaçılar tərəfindən öyrənilir. Dövrümüzdə Ə.Əsgərovun bəstələdiyi melodiyalar Türksoylu xalqların musiqiçiləri tərəfindən də maraqla qarşılanırvə repertuarlarına daxil edilir. Məsələn,Ardahan Universiteti Gözəl Sənətlər Fakultəsinin müəllimi Yusuf Altununifasında eşitmək mümkündür [7].

**Ələkbər Əsgərovun rəqs melodiyaları.** Sənətkarın yaradıcılığında bəstələdiyi rəqs melodiyaları da xüsusi yer alır. Ələkbər Əsgərov, öz bəstələrini Avropa musiqisinə xas olan variasiya, sekvensiya və sərbəst modulyasiya prinsiplərinə əsaslanaraq qurmuşdu.Onun melodiyaları quruluş özəlliklərinə görə və improvizələr baxımından xalq rəqslərindən fərqlidir.

Ə.Əsgərovun rəqs melodiyaları 6/8 ölçüsündə yazılan fərqli insanların xarakteristik portret eskizləridir. Bu əsərlər nəfəsli musiqi alətlərinin texniki imkanlarına uyğun bəstələnmişdir. Melodiyaların əvvəlində səkkizlik pauzalara rast gəlmək mümkündür.

Günümüzdə Ə.Əsgərovun bəstələdiyi – "Ədaləti", "Mehribanı", "Natəvanı", "Rasimi", "Cavidi", "Mətanəti", "Vüqarı", "Bəxtiyarı", "Kürdü", "Qədim rəqs", "Zöhrabı"rəqs melodiyaları gənc ifaçılar tərəfindən öyrənilir və konsert proqramlarına daxil edilir.

Ə.Əsgərov, Azərbaycan məqam özəlliklərindən və Avropalad (məqam) prinsiplərindən faydalanaraq özünəməxsus bir sintez yaratmışdır. Bu

yanaşmanın izahını vermək üçün onun “Zöhrabı rəqsi üzərində qurduğu struktur özəlliklərinə aydınlıq gətirək.

“Zöhrabı” rəqsinin melodiyasını eşidərkən ilk baxışdan elə təəssürat yaranır ki, bu rəqs bayatı-şiraz məqamında səslənir və “Bayatı-Şiraz” muğamı üzərində qurulmuşdur. Lakin biz bütün məqamlarımıazın və “Zöhrabı” rəqsinin xüsusiyyətlərinitəhlil edəndən sonra belə bir qənaətə gəlirik ki, bu melodiya bayatı-şiraz məqamında deyil və Qərb musiqisinə xas olan major və minor ladlarına (məqamlarına) əsaslanır.Fikrimizi onunla izah edə bilərik ki, hər bir rəqs musiqisində olan məqam dəyişiklikləri öz əksini Azərbaycan muğamlarında tapmalıdır, çünki məqamlarımız eyniadlı muğamlar əsasında qurulub.

**“Zöhrabı” rəqsi**




“Zöhrabı” rəqsinin melodiyası əvvəldə “re” mayəli bayatı-şiraz məqmı qzərində qurulub, lakin sonra melodiya modulyasiya olunaraq “fa” mayəli rast məqamına keçid alır. Bildiyimizə görə “Bayatı-Şiraz” muğamında elə bir şöbə yoxdur ki, “Mayə”dən kiçik tersiya (k.3) yuxarı rast məqamına əsaslansın. Bu səbəbdən, “Zöhrabı” rəqsinin melodiyası sırf bayatı-şiraz məqamı üzərində qurulduğunu demək düzgün deyil. Bu rəqsi biz major bə minor prinsipləri ilə qurulduğunu izah edə bilərik. Belə ki, rəqsin əvvəlindəki melodiya minor tonallığında başlayır və orta hissəsi paralel major məqamına yönəldilir, yəni əvvəldə d-moll (“re” minor) nəzərdə tutsaq, orta hissəsi F-dur (“Fa” major) tonallığına modulyasiya olunur. Maraqlı bir fakt da var ki, bu modulyasiyalar sekvensiyalar üzərində qurulmuşdur və davam olunaraq pillə-pillə aşağı düşür. “Fa” səsindən başlayan melodiya sekvensiya olunaraq “mi” səsinsə təkrar olunur və qəribə haldır ki, bu sekvensiyanın melodik xətti bizə “mi” mayəli segah məqamını xatırladır. Lakin bildiyimizə görə, bayatı-şiraz muğamında “Mayə”dən bir ton yuxa-

rı segah məqamına əsaslanan şöbə yoxdur. Bu səbəbdən biz, melodiyanın inkişafını sekvensiyaların variasiya prinsipləri əsasında qurulduğunu qəbul edə bilərik. Ə.Əsgərovun dahiliyi onda idi ki, göründüyü kimi, Avropa musiqisinə xas olan major və minor ladlarındamusiqi bəstələyir, lakin heç kəs onu hiss etmir və xalq məqamlarında olduğu kimi qəbul edirik.Beləliklə o, özünəməxsus bir sintez yaratmışdır.

**Ələkbər Əsgərovun balaban və klarnet alətləri üzərində etdiyi islahatlar.** Ələkbər Əsgərov, çaldığı alətlərin üzərində konstruktiv dəyişikliklər etmişdir.O, nəfəs musiqi alətlərinin nəzəri və praktiki biliklərinindən faydalanaraqmüxtəlif islahatlar etmişdirvə nəticədəiki klapanlı balaban [8], “As” köklü klarnet [9], iki müştüklü zurna alətlərini düzəltmişdir.

O, balabana klapanlar əlavə etməkləalətin diapazonunu ikinci oktava-nın“do” səsindən “mi” səsinə kimi genişləndirilmişdir.



Ələkbər Əsgərovun hazırladığı klarnet aləti də fərqli xüsusiyyətlərə malikdir. Ustadın hazırladığı “As” köklü klarnet Avropada istehsal olunan – “A”, “D”, “E”, “F”, “G”, “B” növlərindən uzunluğu, kök sistemi və tembrinə görə seçilir. O, öz konstruksiyasında hissə və klapanların uzunluqlarını fərqli düzəldərək yeni çalğı imkanları yaratmışdır.

Edilən dəyişiklikləri görmək üçün“B”, “A” və “As” klarnetlərin quruluşlarına nəzər yetirək (şəkil: 1, 2, 3, 4, 5, 6, 7, 8, 9).

**“B” klarnetin müvafiq hissələri**

“B” yuxarı yarımhissə 255 mm “B” aşağı yarımhissə 243 mm “B” boruağzı (boru bilərziyi) 110 mm



**Şəkil 1.**



**Şəkil 2.**



**Şəkil 3.**

**“A” klarnetin müvafiq hissələri:**

“A” yuxarı yarımhissə 278 mm “A” aşağı yarımhissə 260 mm “A” boruağzı (boru bilərziyi) 110 mm



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.

**Ələkbər Əsgərovun “As” köklü klarnetin müvafiq hissələri**

“As” yuxarı yarımhissə 290 mm“As” aşağı yarımhissə 280 mm“As” boruağzı (boru bilərziyi) 116 mm



Şəkil 7.



Şəkil 8.



Şəkil 9.

Ə.Əsgərovun düzəltdiyi “As” köklü Azərbaycan klarnetinin həm ümumi uzunluğu, həm də boruağzıhissəsi digər alətlərin eyniadlı hissələrinə nisbətən uzundur. Orqanologiya elmindən bəllidir ki, hər hansı bir nəfəs musiqi alətinin borusu nə qədər uzun olarsa, bir o qədər də bəm səslənər və bəm səsli klarnetin dalğaamplitudası zil səsli klarnetə nisbətən daha güclü və qüvvətlidir. Ona görə bəm növlü klarnetin səs dalğası digər alətlərlə müqaisədə gec sönür.

Ə.Əsgərov klarnetini “As” kökündə hazırlayıb. Yəni bu klarnetin “do” səsi fortepianonun “lya bemol” səsi ilə üst-üstə düşür. Bu alət əsasən dəstgahlarıöz kökündən yarım ton aşağı oxumaqda əziyyət çəkən xanəndələri müşayiət etmək üçün nəzərdə tutulmuşdur, yəni yarım ton aşağı transpozisiya edilmişdir.Xanəndələr toy məclislərində, konsertlərdə özlərini əziyyətə salmamaqdan ötrü və yaxud səs diapazonları yetərincə olmadığından ifa etdikləri əsərin ümumi kökünü yarım ton aşağı salmalı olurlar. Bu ifalar “A” klarnetinin kökünə uyğun gəlmədiyi üçün heç bir

ifaçı xanəndəni müşayiət edə bilmirdi. Yaranan problem ilə əlaqədarƏ. Əsgərov "A" köklü klarnetin uzunluğunu dəyişdirməklə yanaşı onun ümumi səsdüzümündədəyişikliklər edir və buməsələ öz həllini tapır. Başqa musiqiçiləryaranan problemlə əlaqədar yalnız duetin ifasını dinləyə bilirdilər. "As" klarnetin applikatura quruluşu Avropa istehsalı olan "B" alətində olduğu kimi yarımpərdələrə düşür və ifaçılardanvirtuozluq tələb edir. Müqaisə üçün fortepianonun qara dillərini nümunə göstərmək olar. Piano ifaçıları arasında da qara dillərdə ifa edən virtuoz ifaçılara çox az rast gəlirik. Eləcə də Ə.Əsgərovun "As" klarnetində başqa musiqiçilər də ifa edə bilərlər, lakin onlardan peşəkarlıq və xüsusi hazırlıqtələb olunur. Ə.Əsgərovun icad etdiyi bu alət "A" klarnetindən yarım ton aşağı səslənir və "B" klarneti kimi eyni applikaturaya malikdir.

**Nəticə**. Qeyd edilməlidir ki, Ələkbər Əsgərov öz alətini ebonit (elmi adı qrenadil) materialından hazırlanmışdır və söyləyirdi ki: "Gələcəkdə "As" köklü Azərbaycan klarnetiaprobasiya olduğundan sonra abnosdan, yəni qara ağacdan düzəldəcəyəm".Çox təəssüf ki, ustad bu arzusunu bəlli səbəbdən həyata keçirə bilmədi.

Qeyd edək ki, Ə.Əsgərov çalğılarını "A", "B" və "As" köklü klarnet alətlərində zamanında ustalıqla ifa etmişdir. Onun repertuarında: Üz.Hacıbəylinin – "Sevgili canan" və "Sənsiz" romansları ilə yanaşı bir çox dünya xalqlarının musiqiləri, bəstəkar əsərləri önəmli yer almışdır. Görkəmli sənətkarın ifa etdiyi əsərlər Azərbaycanın "Qızıl Fond"unda qorunub saxlanılır.

Azərbaycan musiqi tarixində Ələkbər Əsgərovun rolu böyükdür və danılmazdır. Neçə illər keçsə də onun çoxşaxəli yaradıcılığı xalqın sərvəti olaraq qorunub saxlanacaq.

## ƏDƏBİYYAT


1. Quliyeva M. Klarnetin tarixi inkişafı və Ə.Əsgərovunalət üzərində etdiyi yeniliklər.//Azərbaycan Elm Mərkəzi, "Elmi iş", İmpakt Faktor: 2.255. – Cild 17, № 3, 2023. – s. 33-40.
2. Quliyeva M. Ələkbər Əsgərovun bəstələdiyi rəqs melodiyalarının struktur özəllikləri.//"Qloballaşan Dünyada Musiqi Ənənələri", AMK I Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, 2017. – s. 178-182.
3. Batı ve Azerbaycan Makam Kuruluşlarından Faydalanarak Serbest ve Özgün bir Sentez: Elekber Esgerov`un Dans Melodileri. // Avrasya Çalışmaları Dergisi. Avrasya Bilimler Akademisi. – Ankara, 2022. – s. 52-74.

4. https://youtu.be/Gt8mj-DPrLs Bəstəkar Nəriman Ə. "Unudulmaz ifaçılar" proqramında Ələkbər Əsgərov haqqında müsahibə.
5. https://youtu.be/1XI_9w_8xXcƏsgərov Ə. – "Dügah" rəngi, (neydə ifa edir Ələkbər Əsgərov).
6. https://youtu.be/T_uQ0pEn_YU?si=p1yIMvpZ5V0_Lym9 Əsgərov Ə. – "Bayatı-Şiraz" rəngi.
7. https://www.youtube.com/watch?v=ItJEkE1N7o4Əsgərov Ə. – "Bayatı-Şiraz" rəngi, aranjiman edən Mahirə Quliyeva. // Tarda ifa edir Yusuf Altun.
8. https://youtu.be/4JjIFQLBWBk?si=KItFM-KjbLCwpI63 Ə.Əsgərovun düzəltdiyi iki klapanlı balaban aləti. Videogörüntü. (M.Ə.Quliyevanın şəxsi arxivindən).
9. https://youtu.be/iPOIWwpEuWI?si=B2HTpW0484VmJRw5Ə. Əsgərovun düzəltdiyi "As" köklü Azərbaycan klarneti. Videogörüntü. (M.Ə.Quliyevanın şəxsi arxivindən).

*Mahira Guliyeva (Turkiye)*

**REFORMS AND INNOVATION IN THE CREATION OF ALAKBAR ASGAROV**

In this article, the multifaceted creative heritage of our outstanding artist Alakbar Asgarov, who enriched the Azerbaijani music with his mysterous performances and reformed wind instruments, will be presented with interesting facts and archival materials. Also, the history of creation of the first instrumental-folk ensemble "Dugah" in Azerbaijani and the innovations made by Alakbar Asgarov, the head of it, will be presented. Here, the master`s performance qualities, teaching activities and dance melodies composed by him will be considered.

In the article, the recorded opnions of well-known musicians of Azerbaijan – Nariman Azimov about the artist Alakbar Asgarov will be commented. In addition, A.Agarov`sreforms on the European-origin clarinet and our national instrument, the balaban, will be compared and presented.

***Key words:*** Alakbar Asgarov, clarinet, balaban, reforms, ensemble "Dugah".

*Махира Гулиева (Турция)*

**РЕФОРМЫ И НОВАТОРСТВО В ТВОРЧЕСТВЕ АЛЕКПЕРА АСКЕРОВА**

В статье на основе фактов и архивных материалов представлено многогранное творческое наследие выдающегося музыканта Алекпера Аскерова, обогатившего азербайджанскую музыку своими загадочными исполнениями и реформами на духовых инструментах. Также представлена история создания первого в Азербайджане инструментально-фольклорного ансамбля "Дюгях" и нововведения, внесённые его руководителем Алекпером Аскеровым. Здесь рассмотрены исполнительские качества мастера, педагогическая деятельность и сочинённые им танцевальные мелодии.

В статье прокомментированы зафиксированные мнения известных музыкантов Азербайджана – Наримана Азимова об Алекпере Аскерове. Кроме того, сопоставлены и представлены реформы Алекпера Аскерова на кларнете европейского происхождения и на национальном инструменте балабан.

***Ключевые слова***: Алекпер Аскеров, кларнет, балабан, реформы, ансамбль "Дюгях".